# Masallı: yeni məktəblərdə yeni dərs ilinin sevinci yaşanır



***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın təhsilin inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə daimi diqqət göstərmələri Azərbaycanın sabahına qayğı baxımından mühüm əhəmiyyət daşıyır. Təhsilə builki start gününədək 22 məktəb tikinti və əsaslı təmir işlərindən sonra təhvil verilib, əlavə olaraq 15 modul tipli məktəb quraşdırılıb. İlin sonuna qədər ümumilikdə 38 məktəb, o cümlədən 1 peşə məktəbi və 31 modul tipli məktəb istismara veriləcək. Ölkəmizin bütün şəhər və rayonlarında, ən ucqar yaşayış məntəqələrində belə müasir çağırışlara cavab verən yeni məktəblərin tikilməsi fərəh doğurur.***

Yeni dərs ilində Masallıda 2 yeni məktəb istifadəyə verilib. Artıq xeyli vaxtdır ki, bu rayonda güclü bir təhsil ab-havası hökm sürür. Rayon icra hakimiyyətində yeni dərs ilində məktəbə gedəcək şəhid övladları ilə görüş xüsusilə yaddaqalan olub. İcra hakimiyyətinin başçısı Şahin Məmmədov məktəblərdə təhsilini davam etdirəcək şəhid övladlarını bu münasibətlə təbrik edərək onlara şagird çantaları və ləvazimatları, qiymətli hədiyyələr təqdim edib. Milli Məclisin deputatı, şəhərin mərkəzindəki "Qəhrəmanlar Parkı"nın təzədən qurulmasında zəhməti olan Məşhur Məmmədov Vətən müharibəsində şanlı tarix yazan şəhidlərimizin, qazilərimizin döyüş yolundan söz açıb, onların hər birinin qəhrəman olduğunu bildirib.

Müəllimlərin ənənəvi sentyabr konfransı uğurla keçib. Tədbirdə innovativ təhsil, dərsə davamiyyət, eləcə də tədris ilinin bu və digər prioritetləri nəzərə çatdırılıb. Masallı şəhər Heydər Əliyev Mərkəzində isə pandemiya dövrünün tələbləri gözlənilməklə, ali məktəblərə qəbul imtahanlarında 600-dən çox bal toplayan tələbələrlə görüş keçirilib. Tədbiri açan Masallı Rayon Təhsil Şöbəsinin müdiri Tariyel Əkbərov məlumat verib ki, 2020-2021-ci tədris ilində məktəbləri bitirmiş 1473 məzundan 598 nəfəri ali məktəblərə qəbul olunub. Onlardan 371 nəfəri oğlan, 227 nəfəri qızdır. 26 nəfər şagird ali məktəblərə qəbul imtahanlarında 600-dən yuxarı, 75 şagird isə 500-600 bal arası nəticə göstərmişdir. Natiqlər yüksək balla tələbə adını qazanan gəncləri təbrik edib, onlara daha yüksək nailiyyətlər arzulayıblar. Tələbələrə rayon icra hakimiyyətinin, ATİAHİ Masallı rayon komitəsinin hədiyyələri təqdim edilib. YAP Masallı rayon təşkilatında da analoji görüş keçirilib. Təşkilatın sədri Seyfəddin Əliyev gənclərə ən xoş arzularını çatdırıb, hədiyyələr verib.

Bundan başqa, bir neçə gün əvvəl Masallıda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən icma əsaslı məktəbəqədər təhsil layihəsi çərçivəsində yerli icma nümayəndələri ilə görüş təşkil olunub.

Rayonun Boradigah qəsəbəsində yeni yaraşıqlı məktəb inşa edilib. İ.Nağıyev adına 2 nömrəli qəsəbə tam orta məktəbi üçün tikilmiş 624 şagird yerlik, üçmərtəbəli bu məktəb binasında müəllimlərin səmərəli fəaliyyəti, şagirdlərin yüksək təhsil almaları üçün hər cür şərait yaradılıb. Məktəbdə 28 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, texnologiya və kompüter otaqları, akt və idman zalları, kitabxana, bufet və digər otaqlar var. Yeni məktəb binası su, elektrik və istilik sistemi ilə, o cümlədən binaya fasiləsiz elektrik enerjisi vermək məqsədilə generatorla təmin olunub. Məktəbin həyətində mini-futbol, həndbol və basketbol meydançaları inşa edilib.

Yeni binanın açılış mərasimində Təhsil İnstitutundan gəlmiş qonaqlar, rayon rəsmiləri iştirak ediblər. Artıq yeni ünvanda yeni dərs ilinə uğurla start verilib. Biz bu məktəbdə olarkən rayonun tanınmış pedaqoqlarından sayılan Nurməmməd Ağayevlə görüşdük. Filoloq və şair kimi nüfuz qazanmış Nurməmməd müəllim hazırda bir vaxtlar şagirdi olduğu doğma məktəbin direktorudur. Bu barədə gözəl misraların müəllifidir:

***Salam, doluxsunan xatirələrim,***
***Salam, ömrümüzün ötən çağları!***
***Dindirsən, min kövrək xatirə söylər***
***O tanış partalar, dərs otaqları...***

Direktorun dediyinə görə, "Zəfər ili: sınaqlar və hədəflər" dərslərin əsas mövzusu olmaqla şagirdlərə vətənpərvərlik hissləri aşılanır. Elə ənənəvi sentyabr konfransında o, söz alaraq bu barədə fikirlərini bölüşüb. Yeri gəlmişkən, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə bu məktəbin 6 məzunu şəhid olub. Birinci mərtəbədə şəhidlərə həsr olunan qəhrəmanlıq guşəsinin önündə ayaq saxlayan müəllim və şagirdlər şəhidlərin ruhuna ehtiramlarını bildirirlər.

Bu tədris ilindən yeni məktəbdə 539 şagird, məktəbəhazırlıq qrupunda isə 40 uşaq təlim prosesinə cəlb olunub. Təhsil müəssisəsində 41 nəfər pedaqoji, 23 nəfər texniki işçi çalışır. Yeni dərs ilində 40 uşaq birinci sinfə qədəm qoyub. Ötən tədris ilində 2 nömrəli Boradigah tam orta məktəbi üzrə nəticələr uğurlu olub. Əlaçıların sayı artıb, biliyi müsbət qiymətləndirilməyən şagird olmayıb. Ali məktəblərə qəbulun vəziyyəti də ilbəil artan dinamika ilə gedir. Bu il universitetlərə 19 məzun qəbul edilib. Sevindirici haldır ki, onların arasında qızların sayı əvvəlki illərə nisbətən daha çoxdur. Qəbul imtahanlarında 2 nəfər 600-dən, 4 nəfər isə 500-dən yuxarı bal toplayıb ki, bu da rayon üzrə ən yüksək nəticədir. Fatimə Rəfiyeva 639 balla BDU-nun hüquq, Riad Kazımov isə 629 balla Tibb Universitetinin müalicə fakültəsinə daxil olub.

Tədris müəssisəsində yeni dərs ili ilə bağlı bütün təşkilati-texniki tədbirlər yüksək səviyyədə həyata keçirilib. Sentyabrın 22-də məktəbdə 1-4-cü siniflər üzrə ilk dərs günü yaddaqalan olub. İlk dərslər "Qarabağ Azərbaycandır" Zəfər Tarixinə həsr olunub. Şagirdlərə Azərbaycanın şanlı qələbəsi haqqında geniş məlumat verilib.

Rayonun Qızılağac kəndində isə yeni tikilmiş 26 sinifli, 528 yerlik yeni ümumtəhsil məktəbi binasının açılışı olub. Sübhan Xəlilov adına 1 nömrəli tam orta məktəbi üçün yeni bina köhnə məktəbin yaxınlığında inşa edilib. Məktəbə baxış tədbirində Təhsil nazirinin müavini Muxtar Məmmədov, rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədov, Milli Məclisin deputatları iştirak ediblər. Üçmərtəbəli yeni məktəb binasında şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. Burada 26 sinif otağı, həmçinin laboratoriyalar, fənn kabinetləri, hərbi hazırlıq, texnologiya otaqları, kitabxana, akt və geniş idman zalları yerləşir. Rəsmilər, məktəb rəhbərliyi, valideynlər və şagirdlər Azərbaycan təhsilinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildiriblər.

Ümumiyyətlə, Masallı rayonunda 66 tam orta, 26 ümumi orta, 3 ibtidai olmaqla, 95 təhsil müəssisəsi, 2 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Təhsilin infrastrukturunun müasir tələblərə uyğun qurulması məqsədilə rayonda qəzalı vəziyyətdə olan 26 məktəb üçün bina tikilməsi və ya əsaslı təmir olunması da nəzərdə tutulur.

Masallıda təhsil sahəsində uğurların daha da artacağına böyük inam var.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

Xalq qəzeti.- 2021.- 3 oktyabr.- S.6.